**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TƏLƏBƏLƏRDƏ PEDAQOJİ TOLERANTLIĞIN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN SİSTEMİ

İxtisas: 5804.01 – "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi"

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Leyla Fuad qızı Babayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika elmləri doktoru, professor
**Akif Nurağa oğlu Abbasov**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
**Hümeyir Hüseyn oğlu Əhmədov**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Tofiq qızı Vəliyeva**

pedaqogika üzrə fəlsəfə doktoru
**Oktay Cilovxan oğlu Səmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: __________ fizika-riyaziyyat elmləri doktoru, professor
**Hamlet Abdulla oğlu İsayev**

Dissertasiya şurasının elmi katibi: __________ pedaqogika üzrə fəlsəfə doktoru
**Gülbəniz Vaqif qızı Sultanova**

Elmi seminarın sədri: __________ pedaqogika elmləri doktoru, professor
**İntiqam Hilal oğlu Cəbrayılov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanda çoxlu millətlər və xalqlar yaşayır. Onlar arasında qarşılıqlı anlaşma, mehribanlıq, səmimiyyət vardır. Azərbaycanda dinc şəraitdə yaşayır, fəaliyyət göstərir, bu respublikanı özlərinə doğma vətən sayırlar. Bu gözəl münasibət ölkə rəhbərliyinin düzgün siyasəti, azərbaycanlıların digər xalqlarla dinc yanaşı yaşamaq, onların dininə, milliyyətinə hörməti sayəsində mümkün olmuşdur. Qanunlarımız da başqa dinlərə, etnik qruplara, dillərə münasibətdə humanist, ədalətli münasibətdədir.

YUNESKO noyabr ayının 16-sını Beynəlxalq Tolerantlıq Günü elan etmişdir. Həmin gün 1995-ci ildə təşkilatın "Dözümlülük prinsipləri bəyannaməsi"ndən qaynaqlanır. Bəyannamədə tolerantlığa verilən tərif belədir: Tolerantlıq "Dünya mədəniyyətlərinin zəngin müxtəlifliyi, bizim özünümüdafiə formaları və insan fərdiliyini ifadə etmək üsullarına hörmət, qəbul və doğru anlaşma" deməkdir.

Tolerantlığa önəm verilməsi çoxsaylı beynəlxalq və daxili ixtilafları aradan qaldırılmasına, münaqişələrin həllinə imkan verdi.

Ölkəmiz tarixən milli və dini baxımdan həmişə tolerant bir ölkə olmuşdur. Azərbaycan xalqının tolerant bir xalq olduğunu, həm tarixi mənbələr, həm də müxtəlif vaxtlarda ölkəmizə gələn xarici qonaqlar təsdiq etmişlər. Məsələn, görkəmli fransız yazıçısı Aleksandr Düma 1858-ci ilin sonları, 1859-cu ilin əvvəllərində Rusiya imperiyasının (o cümlədən Qafqazın) ərazilərini gəzib-dolanmışdır. Vətəninə qayıdarkən "Qafqaz səfəri" əsərini yazmışdır. A. Düma Azərbaycanın Dərbənd, Quba, Şamaxı, Bakı, Nuxa (Şəki) şəhərlərində də olmuş, öz əsərində Azərbaycanı tolerant ölkə kimi təsvir etmişdir. A. Dümanın qənaəti belə idi: erməni və farsın sözünə inanmaq olmaz, fəqət tatarın (azərbaycanlının) sözlərinə inanmaq mümkündür.

Tolerantlıq latınca *tolerantia* – hövsələli olmaq, özünü saxlamaq, təmkinli olmaq, səbir, dözümlülük deməkdir. Tolerantlıq aqressiya olmadan bu və ya digər şəxsin hərəkətlərinə, mövqeyinə, özünü ifadə formalarına, fikrinə, hisslərinə, davranışına, adət-ənənələrinə, münasibətinə, həyat tərzinə, fərqli dünyagörüşünə

təmkinli yanaşmanı, anlaşıqlı münasibəti nəzərdə tutur və insanların bir-biri ilə dinc yanaşı yaşamasına təmin edir.

Pedaqoji tolerantlıq tolerantlığın tərkib hissəsi, müəllim şəxsiyyətinin peşəkar əhəmiyyətli keyfiyyətlərindən biri olduğundan yuxarıdakı qənaətləri ona da şamil etmək mümkündür. Deməli, pedaqoji tolerantlıq dedikdə, digər şəxsi (müəllimin həmkarlarını, şagirdi, tələbəni, valideyni və b.) qəbul etmək, onu başa düşmək, ona rəğbət bəsləmək bacarığını özündə birləşdirir, gündəlik qarşılıqlı münasibətdə olduğu şəxslərlə açıq və etibarlı ünsiyyətdə öz ifadəsini tapır.

Tolerantlıq anlayışla yanaşı “intolerant” anlayışı da mövcuddur. İntolerantlıq səviyyəsi onunla səciyyələnir ki, başqalarının fikri nəzərə alınmadan təkbaşına qalaraq, güzəştə getmək istəmədən ətrafdakılara münasibətdə acıq, dözümsüzlük, səbirsizlik, açıq düşmənçilik nümayiş etdirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tolerantlığa, multikulturalizm yüksək dəyər verir. Onun sözləridir: "Bizim üçün multikulturalizm həm həyat tərzidir, həm də dövlətimizin apardığı siyasətdir. Multikulturalizm ideyalarının təbliğində Azərbaycan dünya miqyasında çox önəmli rol oynayır”.

Pedaqoji tolerantlıq başqa insanı qəbul etmək, onu anlamaq, ona rəğbət bəsləmək bacarığını ifadə edir, tələbələr və həmkarları ilə açıq və etibarlı ünsiyyətdə ifadə olunur.

İstər respublikamızda, istərsə də xarici ölkələrdə təhsilalanlarda həm tolerantlığın, həm də pedaqoji tolerantlığın formalaşdırılması problemini özündə ehtiva edən dissertasiyalar müdafiə olunmuş, elmi məqalələr, kitab və kitabçalar yazılmışdır. Respublikamızda prof. A.N. Abbasov ailə münasibətlərində tolerantlıqla bağlı araşdırmalar aparmış, L.İ. Əliyeva, H. Abbasova, Z. Bəşirqızı, S. Axundova, S. Bahadurqızı, S.N. Bayramlı, P.B. Əliyev, R. Cəfərli, Cavid, A. Eyvazov, Z. Abbasov, R. Aslanova E. Hacıalıyev, S. Elmanoğlu , Səbuhi məqalələr yazmış; pedaqogika üzrə fəlsəfə doktoru İ.B. Əmirəliyeva – tələbələrdə tolerantlığın tərbiyə olunması ilə bağlı dissertasiya müdafiə etmişdir. A.F. Quliyevanın məqalə və tezisləri pedaqoji tolerantlığın formalaşdırılmasına aiddir. Diqqət yetirək: “Pedaqoji tolerantlığın aktual problemləri”.

Xarici ölkələrdə V.V. Boqdanova, E.A. İlinskaya, N.V. Kuşkin, Q.E. Kontrov, V.V. Şalin, Y.V. Povarenkov, O.İ. Kruşelnitskaya, Q.Q. Maslova, O.İ. Pançenko, V. Talaniv və b. təhsilalanlarda – tolerantlığın; L.Q. Balanovskaya, A.Y. Kalitova, N.O. Lipatova, M.A. Perepelitsına, V.S. Çernyavskaya və b. pedaqoji tolerantlığın tədqiqinə aiddir.

Nəzərdən keçirdiyimiz problemin aktuallığını nəzərə alaraq, dissertasiya mövzusu aşağıdakı kimi müəyyənləşdirilmişdir: "Tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması üzrə işin sistemi".

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti – ali məktəb tələbələrində pedaqoji tolerantlığın inkişaf etdirilməsidir.

Tədqiqatın predmeti – tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması prosesidir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi – tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması prosesinin təşkilinin əsaslarını müəyəynləşdirməkdən ibarətdir

**Tədqiqatın** qarşısında duran **v ə z i f ə l ə r** bunlardır:

- müəllimin tolerantlığını pedaqoji-psixoloji problem kimi əsaslandırmaq;
- pedaqoji tolerantlığa tolerantlığın mühüm növlərindən və müəllimin mühüm peşə keyfiyyətlərindən biri kimi yanaşmaq;
- "Təhsilverənlərin etik davranış qaydaları"nı tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması vasitəsi kimi nəzərdən keçirmək;
- təhsilalanlarda pedaqoji tolerantlığın formalaşdırılması problemi üzrə mövcud ədəbiyyat təhlil etmək;
- pedaqoji tolerantlığın bərqərar olmasında pedaqoji ünsiyyət modellərinin rolunu göstərmək;
- müəllim-tələbə münasibətlərinin səmərəli qurulması pedaqoji tolerantlığın təşəkkülü üçün əhəmiyyətli şərt olduğunu əsaslandırmaq;
- əməkdaşlıq pedaqogikası pedaqoji tolerantlığın tərkib hissəsi kimi tədqiq etmək;
- tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının praktik məsələlərinə aydınlıq gətirmək;

- təlim prosesində tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının imkan və yollarını araşdıqmaq;

- auditoriyadankənar tədbirlər zamanı tələbələrdə pedaqoji tolerantlıq mədəniyyətinin formalaşdırılmasının imkan və yollarını aşkarlamaq;

- pedaqoji təcrübəsi zamanı tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının imkan və yollarını aydınlaşdırmaq;

- eksperimentin təşkili, aparılması və nəticələri barədə zəruri təsəvvür yaratmaq.

Araşdırmalar zamanı faydalandığımız **tədqiqat metodları**: *nəzəri təhlil və tərkib, pedaqoji müşahidə, pedaqoji müsahibə, sənədlərin öyrənilməsi, riyazi-statistik metodlar, pedaqoji eksperiment.*

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Pedaqoji tolerantlığın formalaşdırılmasına ali məktəb tələbələrinin hazırlığı sisteminin, şəxsiyyətin mənəvi tərbiyəsinin üzvi tərkib hissəsi kimi yanaşılmalıdır.

2. Tələbələrdə pedaqoji tolerantlıq şüurunun, pedaqoji tolerant təfəkkürünün, pedaqoji tolerant davranışının formalaşdırılması prosesi üzrə ali məktəb müəlliminin fəaliyyəti o vaxt səmərəli nəticələnər ki, bu iş təlim prosesində mühazirə və seminar məşğələlərində, eyni zamanda auditoriyadankənar tədbirlərdə səmərəli şəkildə təşkil olunsun.

3. Müəllimin mühüm peşə və şəxsiyyət keyfiyyəti olmaq etibarilə pedaqoji tolerantlığı müəllim həmkarlarını, tələbələri, digər aidiyyəti şəxsləri anlamaqda, qəbul və etiraf etməkdə, qarşılıqlı fəaliyyət üçün səmimilikdə, öz mövqeyini onların mövqeyi ilə tutuşdurmaqda öz əksini tapır.

**Tədqiqatın elmi yeniliyi**:

1. Tələbələrdə pedaqoji tolerantlığı formalaşdırmağın nəzəri və praktik əsaslarına aydınlıq gətirilib.

2. Təlim prosesində və auditoriyadankənar tədbirlərdə tələbələrdə pedaqoji tolerantlığın səmərəli şəkildə formalaşdırılmasının sistemi yaradılıb.

3. Təlim və tərbiyə prosesində pedaqoji tolerantlığın xüsusiyyətləri aşkara çıxarılıb.

**Tədqiqatın praktik əhəmiyyəti:**

1. Dissertasiyada nəzərdən keçirilən problemlə bağlı iş sistemi, əsas elmi ideyalar, tədqiqatın nəticələri tələbələrdə pedaqoji tolerantlığın yüksək səviyyədə tərbiyə olunmasında müəllimlərə, ali məktəbin rəhbərlərinə və ictimai təşkilatların nümayəndələrinə, tərbiyə işləri üzrə prorektorlara, akademik qrupların kuratorlarına kömək göstərəcəkdir.

2. Tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının metodları, formaları və vasitələri müəyyənləşdirilib.

3. Tədqiqatın nəticələrindən pedaqogika, psixologiya və pedaqoji psixologiya üzrə tədris kurslarında faydalanmaq mümkündür.

4. Tədqiqatın praktik əhəmiyyəti eyni zamanda bununla müəyyən edilir ki, onun nəticələri tələbə gənclərin peşə-pedaqoji hazırlığının təkmilləşdirilməsinə yönəlib.

**Tədqiqatın nəzəri əhəmiyyəti:**

1. Pedaqoji tolerantlığın mahiyyəti, məzmunu, xüsusiyyətləri, meyarları, göstəriciləri müəyyən edilmişdir.

2. Tələbə gənclərdə pedaqoji tolerantlığın lazımi şəkildə formalaşdırılmasının mexanizmləri və şərtləri aydınlaşdırılmışdır. Tələbələrdə pedaqoji tolerantlığı formalaşdıran prosesin modeli işlənib hazırlanmışdır.

Beləliklə, dissertasiyada irəli sürülən elmi ideyalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, tələbələrdə pedaqoji tolerantlıq kimi mühüm peşə və şəxsi keyfiyyətlərin formalaşdırılması işinin elmi əsaslar üzərində qurulmasına imkan verəcəkdir.

**Tədqiqatın nəticələrinin aprobasiya və tətbiqi.** Dissertasiyada nəzərdən keçirilən problemlə bağlı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövrü elmi jurnallarda 7 məqalə (o cümlədən 2 məqalə xaricdə – xülasələndirmə və indeksləndirmə bazasında olan jurnalda), eyni zamanda 4 beynəlxalq və respublika elmi konfrans materialı (o cümlədən bir konfrans materialı xaricdə) nəşr etdirmişdir.

**Dissertasiyan işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyektinə, predmetinə, məqsəd və vəzifələrinə, elmi yeniliyinə, nəzəri və praktik əhəmiyyətinə aydınlıq gətirilir, müdafiəyə çıxarılan müddəalar göstərilir.

Dissertasiyanın **"Tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması üzrə işin sistemi"** adlanır. Bu fəsil 7 paraqrafdan ibarətdir. I fəslin ***"Müəllimin tolerantlığı pedaqoji-psixoloji problem kimi"*** adlanan birinci paraqrafında pedaqoji tolerantlığın qarşısında duran məqsəd belə müəyyənləşdirilmişdir: pedaqoji tolerantlığı tələbələrdə qeyri-zorakılığa əsaslanan dözümlülük, təmkinlik, səbir, hövsələ, əməkdaşlıq, sülhsevərlik və digər şəxslərin hüquq və azadlıqlarına hörmət ruhunda tərbiyə olunma kimi anlamaq mümkündür.

Göstərilir ki, pedaqoji tolerantlığın iki cəhəti mövcuddur. *Birincisi*, emosional baxımdan davranışı qüsurlu olan və təlimdə yetirməyən məktəblilərə münasibətdə müəllimin dözüm, təmkin, səbir nümayiş etdirməsidir. Mühazirə və seminar məşğələlərində ixtisas üzrə biliklər verməklə, peşə səriştəliliyi yaratmaqla bərabər həm də gələcək müəllimdən ötrü vacib keyfiyyət olan pedaqoji tolerantlığın tərbiyə olunması diqqət mərkəzində dayanmışdır. İntolerantlıq şəxsiyyətlərarası münasibətlərin səmərəliliyinə çox pis təsir edir.

Pedaqoji tolerantlığın *ikinci istiqaməti* tələbələrdə tolerant davranış təcrübəsinin tərbiyə olunmasıdır. Odur ki, ali məktəbdə bu istiqamətdə başlıca diqqət müxtəlif xalqlardan və millətlərdən olan tələbələrlə tolerant münasibətlərin yüksək səviyyədə təşkilidir. Azsaylı xalqlara, başqa millətlərin nümayəndələrinə fərq qoyulmamalıdır və respublikamıza bu məsələ ilə bağlı ayrı-seçkilik yoxdur.

Bu da önəmli fakt, önəmli göstəricidir ki, respublikamızda yaşayan digər xalqların nümayəndələri – talışlar, tatlar, udilər, kürdlər, ləzgilər, avarlar, ruslar, yəhidilər Vətən təhlükədə olanda azərbaycanlılarla birlikdə torpaqlarımızı qorumuşlar.

Tolerant davranışın tərbiyə olunmasının qarşısında bir sıra vəzifələr dayanır. *Birinci* vəzifə tələbələrdə tolerant şüurun, tolerant

düşüncənin, tolerant təfəkkürün formalaşdırılması və eyni zamanda onların özünütərbiyəsi ilə əlaqədardır. *İkinci vəzifə* tələbə gənclərin tolerant davranış təcrübəsinin formalaşdırılmasından ibarətdir.

Haqqında danışılan məsələlərin hər ikisinin səmərəli şəkildə həllində müvəffəqiyyət müəllimlə tələbə arasında ünsiyyətdə, pedaqoji prosesin özündə əks olunur.

Pedaqoji tolerantlıq tələbəyə xoş münasibəti və rəftarı, onu qəbul etməyi, anlamağı, ona rəğbət bəsləməyi nəzərdə tutur. Pedaqoji tolerantlıq tələbələr və həmkarları ilə açıq və məxfi ünsiyyətdə öz ifadəsini tapır.

Tələbələrdə pedaqoji tolerantlığın səmərəli şəkildə formalaşdırılması üçün tolerantlığın əsas prinsipləri rəhbər tutulmalıdır. Həmin prinsiplərə aiddir:

- müəllimlər və valideynlər tələbələrlə münasibətdə xoşməramlı və hövsələli olmalıdırlar;
- müəllim-tələbə münasibətləri düzgün qurulmalı, pedaqoji əməkdaşlıq təmin edilməlidir;
- qiymətləndirmə tələbələrin inkişafına imkan yaratmalı, zəruri bilik və bacarıqların qazanılmasına kömək göstərməlidir;
- əlverişli və müsbət ünsiyyət bərqərar olmadan təlim prosesinin səmərəliliyi qeyri-mümkündür. Bu müddət ərzində davranış normaları və qaydaları müəyyənləşdirilir, ətrafdakılara və həyata müsbət münasibət təşəkkül tapır.

*Nəticə*: gələcək müəllimlər hələ ali təhsil müəssisələrində, kolleclərdə təhsil aldıqları illərdən pedaqoji tolerantlıq kimi mühüm keyfiyyətə yiyələnməlidirlər.

I fəslin 2-ci paraqrafı *"**Pedaqoji tolerantlıq tolerantlığın mühüm növlərindən və müəllimin mühüm peşə keyfiyyətlərindən biri kimi**"* adlandırılmışdır. Pedaqoji tolerantlıq müəllim-tələbə (şagird) münasibətlərinin, pedaqoji əməkdaşlığın səmərəli qurulmasını tələbata çevirir. Müəllim tələbəni öz övladı kimi sevir, onlar arasında ayrı-seçkilik salmır, pedaqoji fəaliyyətində obyektiv, prinsipial, humanist, ədalətli olur, demokratik prinsiplərə əsaslanır. Tələbə də öz müəllimini sevir, onun hörmətini saxlayır və nüfuzunu qoruyur.

İntolerantlıq isə, mənfi keyfiyyətdir. Müəllimin tələbəyə münasibətində intolerantlıq bir sıra əlamətlərə malikdir: xudpəsəndlik, müəllimin özünə vurğunluğu, iddialılıq, özünü şagirddən çox yüksəkdə tutması, qorxutma taktikası, tələbəni öz iradəsinə tabe etmək istəyi, kəskin emosional partlayışlar (qəzəb, nifrət), əsəbilik, aqressivlik, hədə-qorxu gəlmə; ayrı-seçkiliyə yol vermək, səbirsizlik, özündən tez çıxması, tələbələrlə qarşılıqlı münasibətlərdə ehtiyatsızlıq.

Müəllimin həmin keyfiyyətlərə malik olması şagirdin də ona münasibətində dözümsüzlük, acıq, intolerantlıq yaradır. Müəllimin tələbə ilə kobud davranması, onun biliyinə düzgün qiymət verməməsi, şəxsiyyətinə hörmət etməməsi, onu təhqir etməsi tələbəni qıcıqlandırır. Tələbə artıq uşaq deyildir. O, müəllimin dediklərinə əməl etməməyə, seminar məşğələlərinə hazırlıqsız gəlməyə, əlim prosesindən yayınmağa, yaxud gecikməyə başlayır. O, müəllimə söz qaytarır, müəllimin təhqirinə təhqirlə cavab verir.

Pedaqoji tolerantlığın formalaşdırılmasında yanaşma tərzləri mühüm rola malikdir. Şəxsiyyətlərarası münasibətlərin düzgün qurulması tələbədə özünə inamı, müstəqilliyi, təşəbbüskarlığı və özfəaliyyəti xeyli dərəcədə artırır. Mənfi yanaşma isə, təbii ki, mənfi reaksiya doğurur. Bu zaman münasibətlərdə məcburetmə, təzyiq və mənfi qiymətləndirmə üstün mövqe qazanır. Nəticədə tələbələr təşəbbüskarlıqdan, idrak müstəqilliyindən və yaradıcı fəallıqdan məhrum olurlar.

Hər hansı bir ixtilaflı vəziyyət yaranırsa-yaransın, müəllimdən pedaqoji tolerantlıq və hövsələ tələb edir. Tələbə onu özündən çıxara, artıq hərəkətə yol verə bilər. Müəllim özünü ələ almalı, yersiz özündən çıxmamalı, səsini qaldırmamalı, nitqində artıq sözlər işlətməməlidir.

Hər bir müəllim, istər ümumtəhsil, orta ixtisas, istərsə də ali məktəb müəllimi olsun, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2024-cü il 15 may tarixli, KQ 07 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsilverənlərin etik davranış qaydaları” ilə tanış olmalı, tələbələrlə (şagirdlərlə) qarşılıqlı münasibətlərində tolerantlıq nümayiş etdirməlidirlər.

Nəticə olaraq deyə bilirik ki, paraqrafda nəzərdən keçirilən məsələlər müəllim-tələbə əməkdaşlığına, müəllim-tələbə münasibətlərinin səmərəli qurulmasına imkan verərdi.

I fəslin adlanan 3-cü paraqrafında ***"Təhsilverənlərin etik davranış qaydaları" tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması vasitəsi kimi"*** nəzərdən keçirilir. Həmin "….qaydalar" aşağıdakı bəndlərə bölünmüşdür: 1. Ümumi müddəalar. 2. Təhsilverənlərin etik davranış prinsipləri. 3. Təhsilverənlərin xidməti davranışı. 4. Təhsilverənlərin xidməti fəaliyyətindən kənar davranışı. 5. Etik davranış qaydalarına riayət olunmasının təmin edilməsi.

Ali təhsil müəssisələrində pedaqoji tolerantlığın formalaşdırılması istiqamətində tələblərlə iş aparılarkən, əvvəla, həmin müəllimin özü bu " qaydalar"ı diqqətlə oxumalı, onlara əməl etməli; ikincisi, tələbələrin həmin qaydalarla tanışlığına nail olmalıdır.

Tələbələr müəllim şəxsiyyətinin kamil olmasını şərtləndirən mühüm keyfiyyətlərə, davranış və rəftar təcrübəsinə yiyələnməlidir. Bunun üçün müəllimlərin hər biri müəllim şəxsiyyətini səciyyələndirən xüsusiyyətlərə bələd olmalıdır. Bu sahədə "Təhsilverənlərin etik davranış qaydaları" onlara yaxından kömək göstərəcəkdir.

Deyilənləri ümumiləşdirməli olsaq, belə bir nəticəyə gələ bilərik ki, tələblərdə tolerant şüurun, tolerant davranışın təşəkkülündə, onların pedaqoji tolerantlığa yiyələnmələrində "Təhsilverənlərin etik davranış qaydaları" mühüm vasitədir, təhsilləndirici, təbiyələndirici və inkişafetdirici rol oynayır.

I fəslin 4-cü paraqrafında ***"Təhsilalanlarda pedaqoji tolerantlığın formalaşdırılması problemi üzrə mövcud ədəbiyyatın təhlili"*** aparılır. Həm respublikada, həm də xaricdə dərc edilmiş məqalələr, kitab və kitabçalar, müdafiə edilmiş dissertasiyalar diqqət mərkəzində dayanmışdır. Dissertasiyada prof. A.N. Abbasovun "Ailə pedaqogikası" dərsliyində özünə yer almış və eyni zamanda ARTİ-nin "Elmi əsərlər"ində çap olunmuş "Ailə münasibətlərində tolerantlıq" mövzusunda məqaləsinə münasibət bildirilir, daha sonra İ.B. Əmirəliyevanın "Ali məktəb tələbələrində tolerantlığın

formalaşdırılması” mövzusunda dissertasiya əsəri təhlil edilir. İ.B. Əmirəliyeva dissertasiyasında tədqiqatın məqsədini belə aydınlıq gətirmişdir: “Tədqiqatın məqsədi ali məktəb tələbələrinin tolerantlıq mövqeyinin inkişafına təsir göstərən əsas amillər arasındakı əlaqələrin xarakterini və məzmununu öyrənməkdən, tolerantlığın formalaşdırılmasının pedaqoji şərtlərini nəzəri-metodoloji cəhətdən əsaslandırmaq və eksperiment vasitəsilə yoxlamaqdan ibarətdir”.

İ.B. Əmirəliyeva pedaqoji tolerantlığa da münasibət bildirmişdir. Diqqət yetirək: “Yeni pedaqoji təfəkkür müəllimə yeni tələblər verir. Onların sırasında pedaqoji tolerantlıq özünəməxsus yer tutur. Tolerantlıq bir tərəfdən tərbiyəvi və təhsil vəzifələrinə çatmaq üçün vasitə kimi, digər tərəfdən tərbiyə prosesinin məqsədlərindən biri kimi nəzərdən keçirilə bilər. Pedaqoji fəaliyyətin səmərəliliyinin zəruri şərti – tələbəni necə varsa, eləcə qəbul etməkdən ibarətdir. Tələbəyə münasibətdə öz davranış və rəftarını, ünsiyyət tərzini özünün xüsusi taktikasına əsasən quran tolerant müəllim böyük nəticələrə nail olur”.

Müəllifin fikirləri ilə razılaşmaq mümkündür.

Ölkəmizdə aparılmış tədqiqatlarla, dissertasiya, kitab və kitabçalarla tanışlıqdan göstərir ki, tolerantlığa, ailə münasibətlərində tolerantlıq probleminə bu və ya digər dərəcədə yer ayrılsa da, pedaqoji tolerantlıq xüsusi tədqiqatların obyekti olmamışdır.

Tolerantlığı, o cümlədən Azərbaycan tolerantlığını L.İ. Əliyeva – bizim həyat tərzimiz kimi; Z. Bəşirqızı – mentalitetimizin ayrılmaz cəhətlərindən biri kimi, E. Hacıalıyeva – dünyaya nümunə kimi;, N. Bayramlı – digər dövlətlər üçün nümunə kimi; R. Cəfərli – vətəndaş cəmiyyətində birliyin və sülhün təminatçısı kimi; Cavid – demokratiyanın əsas elementi kimi; A. Eyvazov – dini dözümlülüyün Azərbaycan modelini dünyaya nümunə kimi; Z. Abbasov Azərbaycan cəmiyyətinin yaşam tərzi kimi; Z. Bəşirqızı mentalitetimizin mühüm məsələlərindən biri kimi nəzərdən keçirilər.

P.B. Əliyev – tolerantlıq tərbiyəsinin mahiyyətinə, məzmununa və həyata keçirilməsi yollarına münasibət bildirmiş; S. Elmanoğlu öz fikirlərini qəzet səhifələrində oxucularla bölüşmüşdür. A. Sadıqoğlu isə, tolerantlığın Azərbaycan modelini diqqət mərkəzinə gətirmişlər.

R. Aslanova Azərbaycanda tolerantlıq ənənəsinin fəlsəfi-tarixi, mədəni əsaslarına münasibət bildirmişdir.

İstər tolerantlıq, istərsə də pedaqoji tolerantlıq sahəsində xarici ölkələrdə bir sıra tədqiqatlar aparılmışdır. Diqqət yetirək: E.A. İlinskaya, O.İ. Pançenko, O.İ. Yudina – böyük məktəbəqədər yaşlı uşaqlarda; V.V. Boqdanova, E.V. Bryantseva, S.A. Gerasimov, O.A. Spitsina, X.X. Tilova – kiçik yaşlı məktəblilərdə; Q.E. Kontrov, – yeniyetmələrdə; Q.M. Şelamova – peşə liseyi şagirdlərində; Q.Q. Maslova, O.V. Orlova, E.L. Pastuxova, A.A. Poqodina və O.V. Tsirul – ümumiyyətlə məktəblilərdə; L.M. İvanova, O.A. Maslovets, İ.V. Mirotvorskara, N.A. Valeyeva – yuxarı sinif şagirdlərində; N.V. Kukuşkin, Q.M. Şelamova, İ.İ. Yepişeva – orta ixtisas məktəbi tələbələrində; O.S. Baturina, O.V. Jelnoviç, L.A. Filyanina, P.F. Komoqorov, N.Y. Kudziyeva, N.O. Lipatova, M.A. Mannanova, S.R. Musifullin, V.A. Panina, O.S. Pavlova, M.A. Perepelitsına, E.V. Rıbak, S.N. Tolstikova – ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması məsələlərini tədqiq etmişlər.

N.O. Lipatova və M.A. Perepelitsına isə, pedaqoji tolerantlığı tədqiqat obyekti kimi seçmişlər.

Tədqiqatçıların bəziləri təhsilalanlarda tolerantlığın tərbiyə olunmasında təlim prosesinin imkanlarını aşkarlamışlar. Məsələn, N.A. Baleyeva və E.L. Pastuxova orta məktəbdə tarix fənninin tədrisinə münasibət bildirmiş, T.A. Quşşa, ümumiyyətlə, təlim prosesinin imkanlarını araşdırmışdır.

Yuxarıda deyilənlərdən görünür ki, respublikamızda gələcək müəllimlərdə pedaqoji tolerantlığın formalaşdırılmasına aid xüsusi tədqiqatların aparılmasına ciddi ehtiyac vardır.

I fəslin 5-ci paraqrafı *"Pedaqoji tolerantlığın bərqərar olmasında pedaqoji ünsiyyət modellərinin rolu"* adlanır. Pedaqoji ünsiyyət müəllimin tələbələrlə auditoriyada, auditoriyadan kənarda, həmçinin onların ata-anaları ilə müəyyən pedaqoji və təhsil məqsədləri baxımından olan peşəkar ünsiyyəti deməkdir. Pedaqoji ünsiyyət vasitəsi ilə zəruri bilik və məlumatlar verilir, bacarıq və vərdişlər formalaşdırılır, təhsilalanlarınn şəxsiyyətinin xüsusiyyətləri dəyişir, qarşılıqlı anlaşma meydana gəlir. Ünsiyyət insanlar, o cümlədən müəllim və təhsilalanlar arasında qarşılıqlı əlaqə deməkdir.

Müəllim-tələbə münasibətlərinin səmərəli şəkildə qurulmasında ünsiyyət modelləri müstəsna dərəcə böyük rol oynayır. Pedaqoji ədəbiyyatda müəllim və tələbələr arasında ünsiyyətin bir sıra modellərinə münasibət bildirilir. Həmin modellərin iki forması diqqət mərkəzinə gətirilir: 1) Müəllimlər və tələbələr arasında əlverişli ünsiyyət modeli; 2) Müəllimlər və tələbələr arasında ünsiyyətin mənfi modelləri.

Müəllimlər və tələbələr arasında əlverişli ünsiyyət modelində "aktiv qarşılıqlı əlaqə modeli" mühüm əhəmiyyət daşıyır. Bu modelin xüsusiyyəti bundan ibarətdir ki, ali təhsil müəssisəsində çalışan müəllim tələbələrlə dialoqda olmağa üstünlük verir, auditoriyada səmərəli mənəvi-psixoloji iqlimin yaradılmasına, təhsilalanların müsbət əhval-ruhiyyədə olmasına çalışır, onların müstəqilliyinə, təşəbbüslərinə imkan və şərait yaradır.

Müəllimlər və tələbələr arasında ünsiyyətin bir sıra mənfi modelləri ilə rastlaşmaq mümkündür. Dissertasiyada aşağıdakı modellərin üzərində dayanılır, mahiyyəti və məramı açıqlanır diktator modeli, fərqli diqqət modeli ("Lokator"), çevik olmayan cavab modeli ("Robot"), avtoritar model ("Mən özüm"), hiperrefleksiv model ("Hamlet"):, hipo-refleksiv model ("Teterev").

Hər bir müəllim özünün fəaliyyətində tolerantlıq nümayiş etdirməli, tolerantlığın əsas prinsiplərini nəzərə almalıdır. Həmin prinsiplərə aiddir: ali məktəbin pedaqoji kollektivi və valideynlər tələbələrə münasibətdə dözümlü, xoşməramlı, hövsələli və nəzakətli olmalıdırlar; müəllimlər onlara eyni tələblərlə yanaşmalıdırlar, gənclərə münasibətdə hörmət və tələbkarlıq mühüm rol oynamalıdır; tələbələrin hisslərini və vəziyyətlərini diqqət mərkəzində saxlamaq və nəzərə almaq; qiymətləndirmə tələbəni stimullaşdırmağa, onun biliklərə, həyati və peşə bacarıq və vərdişlərinə yiyələnməsinə imkan verməlidir; müəllimin öz hisslərini və fikirlərini ifadə etməkdə səmimilik, öz şəxsi təcrübələrini nümayiş etdirməsi; hər bir tələbənin şəxsiyyət kimi qeyd-şərtsiz qəbul edilməsi.

Deyilənlərdən görünür ki, tolerantlıq pedaqogikası, o cümlədən pedaqoji tolerantlıq, pedaqoji dözümlülük, pedaqoji səbir müəllimin şəxsiyyətinə bir sıra tələblər irəli sürür. Belə ki, insana daxili dəyər olaraq münasibət, özünəməxsus dəyər kimi münasibət, öz

imkanlarına inam, özünə hörmət etmək, özünün nüfuzunu gözləmək, özünü qəbul etmək, lazım gəldikdə özünü dəyişə bilmək bacarığı və s.

Tolerantlıq pedaqogikası şagirdə, tələbəyə münasibətin xoşməramlı və xeyirxah olmağı nəzərdə tutur.

I fəslin ***"Müəllim-tələbə münasibətlərinin səmərəli qurulması pedaqoji tolerantlığın təşəkkülü üçün əhəmiyyətli şərt kimi"*** adlanan 5-ci paraqrafında deyilir: Azərbaycanda təhsil şəxsiyyətə yönəlib. Başqa sözlə, şəxsiyyətyönlüdür. Pedaqoji dözümlülük, müəllimlə şagirdin əməkdaşlığı təhsil müəssisəsinin humanistləşdirilməsi və demokratikləşməsi üçün zəruri şərtdir. Təbii ki, bu məsələ şəxsiyyət ideyasına əsaslanır. Aparılan tədqiqatın əsas ideyası tələbəyə sevgi və hörmət aşılamaqdır. Müəllim mühazirələrə, seminarlara, müvafiq fənnə maraq oyatmaq üçün tələbələrlə düzgün ünsiyyət qurmalı, mühazirəyə, seminar məşğələlərinə, fənnə maraq oyatmalıdır. Hər bir müəllim öyrənmə nailiyyətlərini ən çox ünsiyyət vasitəsi ilə həyata keçirir. Müəllimin obyekti olan tələbə həm də subyektdir. Tələbələr də müəllimə böyük təsir göstərir, onun fəaliyyətinə öz münasibətini bildirir, həm öz aralarında, həm də başqalarının, o cümlədən valideynlərin yanında onun əməyini qiymətləndirirlər. Müəllimin əməyini qiymətləndirməyin ən yaxşı yolu tələbələrin fikirlərini öyrənməkdir. Müəllimin fəaliyyətinə ən düzgün qiymət verən, onun biliyi, davranışı, metodikası haqqında aydın təsəvvür yaradan tələbədir.

Müəllim tələbələri yaxşı tanımalı, hər zaman pedaqoji takta - nəzakət və mərifətə, etik davranış qaydalarına riayət etməli, maariflənməli, tələbənin şərəf və ləyaqətinə hörmət bəsləməli, onunla nəzakətli davranmalı, xüsusən də müəllim-şagird münasibətlərini düzgün qurmalıdır.

Pedaqoji tolerantlığın formalaşdırılması üçün müəllim və tələbə: bir-birinə hörmətlə yanaşmalı, bir-birinin nüfuzunu qorumalıdırlar. Müəllim öz davranış və hərəkətlərinə nəzarət etməyi bacarmalıdır. O, tələbəni dinləmək, onu anlamaq və birgə işləmək bacarığına yiyələnməli, diqqətli və həssas olmalı, tələbələrin hazırkı vəziyyətini və əhval-ruhiyyəsini nəzərə almalıdır.

Düzgün qurulmuş müəllim-tələbə münasibətləri gənclərdə öyrənməyə marağı artırır. Müəllim öz məsuliyyətini dərk etməyəndə, tələbəni anlamayanda aralarında münaqişə yaranır. Ona görə də hər iki tərəf (müəllim və tələbə) öyrənməyə şüurlu yanaşdıqda səmərəli nəticələr əldə edilir.

I fəslin 7-ci paraqrafı ***"Əməkdaşlıq pedaqogikası pedaqoji tolerantlığının tərkib hissəsi kimi"*** adlandırılmışdır. Bu paraqrafda diqqət aşağıdakı məsələlərə yönəldilmişdir: Əməkdaşlıq pedaqogikası tələbələrdə tolerantlıq mədəniyyətinin formalaşmasına, eyni zamanda pedaqoji tolerantlığın təşəkkülünə müstəsna dərəcədə böyük kömək göstərir. Əməkdaşlıq pedaqogikası çərçivəsində tərbiyə tələbələrə təsir kimi deyil, müəllimlə tələbə arasında dialoq kimi qəbul edilir.

Müəllim-tələbə münasibətlərində əməkdaşlıq təhsilalanlara humanist münasibətdə öz ifadəsini tapır. Humanist münasibət onların taleyinə maraq, onlara inam, onlarla ünsiyyət qurmaq bacarığı, məcburiyyətin olmaması, müsbət stimul və çatışmazlıqlara dözümlülüyü nəzərdə tutur.

Müəllimin tələbələrlə əməkdaşlığını pedaqoji prinsip, yaxud pedaqoji üsul, və ya yanaşma kimi anlamaq mümkündür. Pedaqoji əməkdaşlıq qarşıda dayanan məqsədə yetməyin, məktəb həyatını, müəllim-tələbə (müəllim-şagird) qarşılıqlı münasibətlərini yaxşılaşdırmağın son dərəcə səmərəli yollarından biridir.

Əməkdaşlıq pedaqogikasının mahiyyəti belədir ki, müəllim təlim-tərbiyə prosesinin idarə edilməsində tələbələrə arxalanır, onları özünə köməkçi hesab edir, pedaqoji prosesin təşkilində onların fikirlərini, rəy, arzu və təkliflərini nəzərə alır, onlarla hesablaşır. Bu prosesdə müəllim çalışır ki, tələbələr təlim prosesinə yaxından qoşulsunlar, onlar müəllimlərlə bərabər pedaqoji prosesin tam hüquqlu iştirakçısı və təşkilatçısı olsunlar.

Tolerant müəllim tələbə oğlanlara və qızlara münasibətdə davranış və rəftar tərzini, ünsiyyət və nitqini qurmağın xüsusi taktikası sayəsində yüksək nəticələrə yiyələnir.

Mövcud ədəbiyyatda pedaqoji əməkdaşlığın aşağıdakı ünsiyyət tərzlərini qeyd edirlər: 1) Əlbir fəaliyyətə və yaradıcılığa əsaslanan ünsiyyət; 2) Dostluğa əsaslanan mehriban ünsiyyət; 3) Tələbələrlə

müəyyən məsafə, "pərdə" saxlamağa əsaslanan ünsiyyət; 4) Təzyiq göstərilməkdə öz ifadəsini tapan hökmlü ünsiyyət; 5) Ələ salmaqla müşayiət olunan ünsiyyət; 6) Ələ almaqla istəyə çatmaq üzrə ünsiyyət.

Əməkdaşlıq pedaqogikasında əsas göstərici uğurlara imzanın atılmasındadır. Hazırda əməkdaşlıq pedaqogikasında təlim prosesində həlledici rola malik 4 istiqamət diqqət mərkəzinə gəlir: 1) ali məktəbin təhsil mühiti vasitəsilə şəxsiyyətə xas xüsusiyyətlərin inkişafına nail olunması; 2) tələbənin təbii və qazanılmış qabiliyyətlərinin dəstəklənməsi və inkişaf etdirilməsi; 3) şəxsiyyətin inkişafının mühüm məqsədi olmaqla tələbəyə humanist münasibətin göstərilməsi və ona fərdi yanaşma; 4) təhsillənmə və təhsildə müvəffəqiyyət.

Tədqiqatlarımızdan görünür ki, müəllimlər istər təlim prosesində – mühazirələrdə və seminar məşğələlərində, istərsə də audiyoriyadankənar məşğələlərdə tələbələrlə ünsiyyət və münasibətlərini daha səmərəli və əlverişli qurmaq üçün bir sıra şərtləri nəzərə almalıdırlar. Həmin şərtlərə aiddir: 1) müəllim özünün ünsiyyət və münasibətində həssas və diqqətli olmalı, tələbənin durumunun, əhvalının necə olmasını görməlidir; 2) o, qarşılıqlı münasibətlərdə öz hərəkət və davranışını, idarə etməyi bacarmalı, rəftar və ünsiyyət tərzinə fikir verməlidir; 3) qarşılıqlı münasibətlər və ünsiyyət zamanı tələbələr çətinliklə qarşılaşdıqda, təlimdə yetirmədikdə pedaqoji müəllim onlara öz köməyini göstərməlidir; 4) müəllim nitqli, eyni zamanda nitqsiz ünsiyyəti mənalı olmalıdır; 5) hər bir müəllim tələbələrlə qarşılıqlı münasibətlərini və ünsiyyət tərzini vaxtaşırı nəzərdən keçirməli, onların təhlilini aparmalı, lazımi nəticə çıxarmalıdır.

Ümumilikdə götürdükdə, müəllim-tələbə əməkdaşlığı ali təhsil müəssisəsinin humanistləşməsinin və demokratikləşməsinin əsasında dayanır. Əməkdaşlıq pedaqogikası tələbənin şəxsiyyətinin pedaqoji prosesin mərkəzinə gətirilməsini, ümumbəşəri dəyərlərin formalaşmasını, təhsilalanların yaradıcılıq qabiliyyətlərinin, fərdiliyinin inkişaf etdirilməsini, eyni zamanda fərdi və kollektiv tərbiyənin vəhdətini nəzərdə tutan tərbiyə konsepsiyasını meydana gətirir.

Müəllim və tələbələrin əməkdaşlıq üslubu müxtəlifdir. Dissertasiyada pedaqoji əməkdaşlıq üslubunun aşağıdakı növləri üzərində dayanılır və onların mahiyyətinə aydınlıq gətirilir: ***1. Avtokratik əməkdaşlıq.*** "*Avto*" latın sözüdür, "*mən*", "*özüm*" mənasını verir. "*Kratos*" da *hakimiyyət* deməkdir. Avtokratik əməkdaşlıq şəraitində müəllim, adətən tələbələrlə qarşılıqlı münasibətlərində hakim mövqe tutur. ***2. Avtoritar əməkdaşlıq*** şəraitində də müəllim hakim mövqe nümayiş etdirir. Avtokratik əməkdaşlıqdan fərqi bundadır ki, o, tələbələrin fikir yürütmələrinə, rəylərini bildirmələrinə icazə verir, fəqət son məqamda yenə də öz hökmünü yeridir. ***3. Demokratik əməkdaşlıq*** – ən düzgün, ən humanist əməkdaşlıq sayılır. Bu tipli əməkdaşlıqda müəllim tələbələrlə işgüzar münasibətdə olur. Əməkdaşlıq pedaqogikasının əsas ideyaları arasında məcbur etmədən öyrənmə, təşəbbüskarlıq, seçim azadlığı, müəllim və şagirdlərin birgə fəaliyyəti, yaxın inkişaf zonasında təlim, yaradıcılıq qabiliyyətlərinin və tələbənin özünə hörmətinin inkişafı diqqəti cəlb edir.

Dissertasiyada əməkdaşlıq pedaqogikasının prinsipləri ilə də tanış olmaq mümkündür.

Yuxarıda deyilənlərə əsasən, belə qənaətə gəlmək olur ki, əməkdaşlıq pedaqogikası pedaqoji tolerantlığın tərkib hissəsi kimi öz rolunu uğurla yerinə yetirir. Pedaqoji əməkdaşlıq müəllim-tələbə münasibətlərinin düzgün qurulmasını təmin edir. Əməkdaşlıq pedaqogikası tələbə şəxsiyyətinin pedaqoji prosesin mərkəzinə gətirilməsini, ümumbəşəri dəyərlərin formalaşmasını, təhsilalanların yaradıcılıq qabiliyyətlərinin, fərdiliyinin inkişaf etdirilməsini, həm də fərdi və kollektiv tərbiyənin vəhdətini nəzərdə tutan tərbiyə konsepsiyasını müəyyənləşdirir.

Dissertasiyanın **"Tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması üzrə işin praktik məsələləri"** adlanan II fəsli dörd paraqrafdan ibarətdir. Fəslin 1-ci paraqrafında ***("Təlim prosesində tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının imkan və yolları")*** ilk növbədə müxtəlif ali təhsil müəssisələrinin pedaqogika, psixologiya və pedaqoji psixologiya fənləri üzrə proqramları, dərslikləri təhlil olunmuş, daha sonra tələbələrdə təlim prosesinin pedaqoji tolerantlığın formalaşdırılmasının imkanlarına və

həyata keçirilməsi yollarına aydınlıq gətirilmişdir. Fənlərin bu və ya digər mövzuları bilavasitə və ya bilvasitə tələbələrdə tolerant mədəniyyətin, o cümlədən pedaqoji tolerantlığın formalaşdırılması baxımından zəruri imkanlara malikdir. Lakin nədənsə haqqında danışılan fənlərin proqramlarında və dərsliklərində müəllimin nə tolerantlığının, nə də pedaqoji tolerantlığının formalaşdırılması ilə bağlı mövzular planlaşdırılmamışdır. Bunu nəzərə alaraq, fənlərin tədrisi zamanı pedaqogika üzrə "Müəllim fəaliyyətinin məzmunu" və "Müəllim üçün zəruri olan peşə keyfiyyətləri", "Müəllim peşəsinə müasir tələblər, müəllimin peşə keyfiyyətləri", "Müəllim pedaqoji prosesdə əsas sima kimi"; ümumi psixologiya fənni üzrə "Qrupda şəxsiyyətlərarası münasibətlər", "Ünsiyyət qarşılıqlı təsir vasitəsi kimi", "Ünsiyyət çətinlikləri və onların aradan qaldırılması yolları", "İnsanların bir-birini qavraması və anlaması", "Şəxsiyyətin inkişafında ünsiyyətin və qarşılıqlı münasibətlərin rolu", "Şəxsiyyətlərarası münaqişə", "Kollektivin idarə olunması", "Davranışın dinamik xarakteristikası", "Xarakter əlamətləri" və s.; "Pedaqoji psixologiya" fənni üzrə "Müəllimin psixoloji portreti: mənəvi mədəniyyətinin siması haqqında düşüncələr", "Müasir müəllimin sosial-psixoloji portreti", "Müəllimlərin rəhbərlik üslubu: avtokratik, liberal və demokratik müəllimlər", "Demokratik müəllimin dərslərində", "Humanistlik psixologiyasının meyarları ilə: simpatiya, səmimilik və etimad haqqında"; "Müəllim-şagird münasibətlərinin sehrində", "Müəllimin portretinin cizgiləri: şagird fırçasının boyaları ilə", "Demoqrafik amillər: müəllim-şagird münasibətlərinin bəzi xüsusiyyətləri", "Gələcəyin müəllim və şagird portretləri haqqında psixopedaqoji proqnozlar", "Pedaqoji ünsiyyət – şagird sözü böyük hərflə yazılanda" və s. mövzular öyrənilərkən yeri gəldikcə müəllimin tolerantlığı, pedaqoji tolerantlığı məsələlərinə də münasibət bildirilirdi.

Müəllimlər səmərəli metod və vasitələrdən faydalanmaqla nəinki tələbələri zəruri biliklərlə silahlandırır, eyni zamanda ayrı-ayrı mövzuların tərbiyələndirici və təhsilləndirici imkanlarından istifadə edərək, şəxsiyyətlərarası münasibətləri, müəllim-tələbə münasibətlərini, pedaqoji əməkdaşlığı təmin edərək eyni zamanda

təhsilalanlarda pedaqoji tolerantlığın inkişaf etdirilməsi qayğısına qalırdılar.

Ali məktəb müəllimi özü pedaqoji tolerantlığa yiyələnməklə, auditoriyanı, təlim prosesini, tələbələri idarə etmə bacarığına sahiblənməklə bu vəzifələrin öhdəsindən gələ bilər. Müəllim özü tolerant olmalıdır, "Təhsilverənlərin etik davranış qaydaları"na malik olmalıdır ki, tələbələrdə tolerant şüuru, tolerant düşüncəni və tolerant təfəkkürü, son nəticədə tolerant davranışı formalaşdıra bilsin.

Dissertasiyanın II fəslinin 1-ci paraqrafında deyilənlərdən aşağıdakı qənaətə gəlinir: tədqiqat bir daha göstərdi ki, tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasında təlim prosesi özünəməxsus mühüm rol oynayır. Bu baxımdan pedaqogika, psixologiya və pedaqoji psixologiya fənlərinin imkanlarından faydalanmaq məqdsədəuyğundur.

II fəslin 2-ci paraqrafı "***Auditoriyadankənar tədbirlər zamanı tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının imkan və yolları"*** adlanır. Göstərilir ki, tələbələrdə pedaqoji tolerantlığın formalıaşdırılmasında təlim prosesi, mühazirə və seminar məşğələləri ilə yanaşı auditoriyadankənar tədbirlər də özünəməxsus rol oynayır. Mühazirə və seminar məşğələləri müəyyən vaxt çərçivəsində aparıldığından bəzən bu və ya digər məsələnin üzərində uzun-uzadı dayanmaq olmur. Bu baxımdan auditoriyadankənar tədbirlərin imkanları genişdir. Həm vaxt cəhətdən məhdudiyyət yoxdur, həm də auditoriyadankənar işin təşkili formaları çoxdur.

Auditoriyadankənar işlər sayəsində tələbələrin vaxtları maraqlı və mənalı olur, eyni zamanda gənclər tələbə kollektivində özlərini reallaşdırmaq imkanı qazanırlar. Bütün bunlar fəaliyyətlərinin nəticələrindən məmnunluq hissi duymaqda onlara kömək göstərir. Tələbələr həm də zəruri praktik təcrübəyə yiyələnirlər. Auditoriyadankənar iş tələbələrə təşkilatçılıq qabiliyyətlərini, müstəqilliklərini, yaradıcı fəallıqlarını inkişaf etdirməyə şərait yaradır.

Dissertasiyada nəzərdən keçirilən problemin reallaşdırılması baxımından auditoriyadankənar iş ikili vəzifəni yerinə yetirir: 1) auditoriyadankənar işin bu və ya digər növü *bilavasitə* pedaqoji tolerantlıq probleminə həsr olunur. Məsələn, "Müəllimin pedaqoji

tolerantlığı" (*söhbət)*, "Müəllimin pedaqoji tolerantlılıq keyfiyyətinə malik olması hökmən lazımdırmı?" (*disput*), "İntolerantlıq: faydası varmı?" (*dəyirmi masa ətrafında rəy mübadiləsi*)" və s.

2) auditoriyadankənar tədbir hər hansı bir başqa problemə həsr olunur, lakin yeri gəldikcə, müəllimin tolerantlıq mədəniyyəti, onun pedaqoji tolerantlığı peşə və şəxsi keyfiyyəti yada salınır, iştirakçıların fikirləri öyrənilir (*problemlə bilvasitə bağlılıq*). Məsələn, "Müəllimin şəxsi keyfiyyətləri" (*müzakirə*), "Müəllimin pedaqoji ustalığı" (*konfrans*), "Müasir müəllim: o necə olmalıdır?" (*disput)*, A.S. Makarekonun "Pedaqoji poema" əsərinin müzakirəsi və s.

Auditoriyadankənar tədbirlər nəticəsində tələbələr kollektivin ümumi marağını, həm də mənafeyini uca tutur, təşəbbüskar olur, tapşırılan işə məsuliyyətlə yerinə yetirir, birgə fəaliyyət göstərirdilər. Eyni zamanda bir-birlərinə hörmət edir, bir-birlərinin nüfuzunu qoruyurdular.

Pedaqoji tolerantlığın formalaşdırılması üçün dissertasiyada pedaqoji situasiyalar diqqət mərkəzinə gətirilir, onlara münasibət bildirmək tələbələrə tapşırılır. Bu baxımdan A.S. Makarenkonun "Pedaqoji poema" əsəri seçilmişdir. Tərbiyəşünas Makarenkonun pedaqoji fəaliyyətində elə məqamlar olmuşdur ki, onlar, sadəcə, yolverilməzdir, "Pedaqoji poema" əsərində Makarenko özü də bunu etiraf etmişdir. Tələbələr o hadisəni yada salırlar. Bu barədə dissertasiyadan zəruri məlumatı almaq mümkündür.

Auditoriyadankənar işin söhbət, müzakirə, disput, tematik axşam, müsabiqə, tələbə konfransı, teatr və televiziya tamaşalarına, filmlərə, sərgilərə baxışlar və s. formalarından istifadə olunur. Tədbirlərdə "tolerantlıq", "pedaqoji tolerantlıq", "intolerantlıq" anlayışlarının mahiyyətinə aydınlıq gətirilir. Tolerantlığın – müsbət, intolerantlığın – mənfi keyfiyyət olduğu diqqətə çatdırılır. Hirslənən, qəzəblənən vaxtı hirsini, qəzəbini boğa bilməyən pedaqoji müəllim qınaq obyektinə çevrilir. Odur ki, pedaqoji tolerantlıq kimi mühüm şəxsi və peşə keyfiyyətlərinə hər bir müəllim sahib olmalıdır.

Yuxarıda deyilənlərdən bu qənaətə gəlinir ki, sistemli, məqsədyönlü və ardıcıl aparılan auditoriyadankənar işlər tələbələrin pedaqoji tolerantlığa yiyələnmələrinə öz köməyini göstərir. Pedaqoji

tolerantlığın formalaşdırılması baxımından auditoriyadankənar işin söhbət və məruzə, dəyirmi masa ətrafında rəy mübadilələri, tələbə konfransları, pedaqoji təcrübə, disput və müzakirələr faydalıdır.

II fəslin 3-cü paraqrafı ***"Pedaqoji təcrübə zamanı tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının imkan və yolları"*** adlanır. Bu paraqrafda deyilir: Tələbələr ali məktəblərin pedaqoji fakültələrində təhsil alarkən mühazirələrdə və seminar məşğələlərində pedaqoji tolerantlıqla bağlı nəzəri məsələlərlə tanış olmaqla, müəllimin öyüd-nəsihətlərinə, məsləhətlərinə qulaq asaraq, özləri üçün nəticə çıxarmaqla yanaşı, pedaqoji təcrübə dövründə sinfə daxil olur, şagirdlərlə ünsiyyətə girir, qarşılıqlı münasibətlər zamanı oxuyub-eşitdiklərini yada salaraq pedaqoji tolerantlıq nümayiş etdirməyə çalışırlar. Onlar dərs keçməklə bərabər şagirdlər üzərində müşahidələr aparır, pedaqoji-psixoloji xasiyyətnamələr hazırlayır, təhkim olunduqları sinfin şagirdləri ilə dərsdənkənar tədbirlər həyata keçirirlər. Bu mərhələlərin hər biri şagirdlərə münasibətdə pedaqoji etikanın tələblərini gözləməyi, müəllim-şagird münasibətlərini düzgün qurmağı tələbata çevirir. Buna nail olmaq üçün təcrübəçi tələbələr dözüm, hövsələ, təmkin, səbir nümayiş etdirməli, başqa sözlə, tolerant olmalıdırlar. Hətta intolerant xarakterli məktəblilərə münasibətdə də təcrübəçi tələbə yersiz əsəbiləşməməli, onların üzərinə qışqırmamalı, kobud hərəkətlərə yol verməməlidir.

Diplom alıb müəllimlik fəaliyyətinə başlamazdan əvvəl pedaqoji təcrübədə olan tələbə dərs deməyə, məktəblilərlə qarşılıqlı münasibətləri və səmərəli ünsiyyət tərzini, sinifdənxaric tədbirlərin təşkili qaydalarını öyrənir. Tələbə seçdiyi peşənin və ixtisasın faydalılığını və gözəlliyini görür, uşaqları sevir, onlarla iş aparmağa marağı artır. Nəticədə sonralar müəllim işləyərkən daha inamlı olur, bütün bunlar onun səmərəli pedaqoji fəaliyyət göstərməsi üçün zəmin yaradır.

Gələcək müəllimlər praktik peşə vərdişlərinə də pedaqoji təcrübə dövründə yiyələnməyə başlayırlar. Odur ki, tələbələrin pedaqoji təcrübədə olmaları son dərəcə zəruridir.

Pedaqoji təcrübə zamanı gələcək müəllimlər şagirdlərlə sinifdənxaric tədbirlərin təşkilində öz imkanlarını yoxlayır,

təlimdənkənar işin formalarından, metod və vasitələrindən faydalanır, zəruri bacarıq və vərdişlərə malik olurlar. Bu imkandan maksimum bəhrələnmək mümkündür.

Müəllimdən, eyni zamanda təcrübəçi tələbələrdən peşəkarlıq, səriştəlilik göstərmək tələb edir. Nəticənin əldə olunması üçün hökmən pedaqoji əməkdaşlıq lazımdır. Pedaqoji əməkdaşlıq istər pedaqoji təcrübənin keçirildiyi məktəb müəllimlərindən, istər ali təhsil müəssisələrinin pedaqoji təcrübədə iştirak edən müəllimlərindən və tələbələrindən pedaqoji baxımdan tolerantlıq nümayiş etdirməsini tələbata çevirir.

Təcrübəçi tələbə öz fəaliyyətində yaradıcı olmalıdır. Eksperimentə cəlb edilmiş təcrübəçi tələbələr şagirdlərlə iş zamanı onlarda tolerantlıq kimi müsbət keyfiyyətin formalaşdırılması qayğısına da qalırdılar.

Pedaqoji tolerantlığa yiyələnmiş təcrübəçi tələbə sinifdənxaric işin bu və ya digər növü üzrə tədbirin uğurlu və səmərəli nəticələndiyini gördükdə ruhlanır. O, şagirdlərə sevinc gətirdiyini, onların asudə vaxtlarının məzmunlu və mənalı təşkil olunduğunu gördükdə çox sevinir. Pedaqoji biliklərə, pedaqoji tolerantlığa yiyələnmədən pedaqoji prosesi başa düşmək və onu idarə etmək qeyri-mümkündür.

Sinifdənxaric tədbirlərin təşkili vaxtı tələbələr müxtəlif sinif şagirdləri ilə qarşılıqlı münasibətləri düzgün qurmağı bacarmalıdırlar. Eksperimentdə iştirak edən təcrübəçi tələbələr pedaqoji tolerantlığa yiyələnmə baxımından nümunə göstərirdilər.

Pedaqoji ustalığa, nəzəri və metodik hazırlığa, pedaqoji tolerantlığa malik müəllim bu kimi suallara asanlıqla cavab tapır, uğurlu fəaliyyət göstərir. Pedaqoji sahəyə hələ yeni qədəm qoyan tələbələr, bir də intolerant tələbələr bəzən çətinliklərin öhdəsindən gələ bilmirlər.

Şagirdlər fərdi və psixoloji xüsusiyyətlərinə görə bir-birindən seçilirlər. Hər bir məktəbliyə münasibətdə konkret yanaşma tərzi tələb olunur. İntolerantlıq nümayiş etdirmək yolverilməzdir. Pedaqoji prosesin səmərəliliyinə nail olmaq üçün şərait də nəzərə alınmalıdır.

Pedaqoji təcrübə zamanı tələbənin pedaqoji fəaliyyətə məsuliyyətinin, yaradıcı münasibətinin, mənəvi inam və

əqidəliliyinin, pedaqoji peşəyə daxili yönəlməsinin inkişafından ötrü mühüm şərait yaranır. Gələcək müəllimin özünütəhsili və özünütərbiyəsi, əlverişli peşə hazırlığı üçün geniş imkanlar açılır.

Deyilənlərdən görünür ki, pedaqoji təcrübə zamanı tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının imkan və yollarını aydın təsəvvür etmək səmərəli göstəricilərlə müşayiət olunur.

II fəslin "***Eksperimentin təşkili, aparılması və nəticələri***" kimi formalaşdırılmış 4-cü paraqrafında aşağıdakı məsələlərin üzərində dayanılır: Tələbələrdə ümumilikdə tolerantlığın və pedaqoji tolerantlığın hansı səviyyədə təşəkkül tapdığını öyrənmək üçün 3 mərhələdən ibarət pedaqoji eksperiment (müəyyənedici, öyrədici, yoxlayıcı) həyata keçirilmişdir.

Tədqiqatın fərziyyəsi – tələbələrdə pedaqoji tolerantlığın uğurla formalaşdırılması aşağıdakı şərtlər daxilində mümkündür: 1) pedaqoji tolerantlığın mahiyyəti, strukturu və məzmunu düzgün müəyyən edilərsə; 2) tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının sistemi işlənib hazırlanarsa və uğurla tətbiq olunarsa; 3) Pedaqoji tolerantlığın formalaşdırılmasının vasitələri aydın təsəvvür edilərsə; 4) Tələbələrdə tolerantlığın formalaşdırılmasına kömək göstərəcək pedaqoji şərtlər səmərəli şəkildə həyata keçirilərsə – gələcək müəllimlərin pedaqoji tolerantlığı müəllimin şagirdi başa düşmək, onu olduğu kimi tanımaq və qəbul etmək, onda başqa dəyərlərin, təfəkkür məntiqinin, davranış formalarının daşıyıcısı görmək bacarığı kimi başa düşüləcək.

Pedaqoji eksperiment 2019-2025-ci illərdə Gəncə Dövlət Universitetində, Azərbaycan Dillər Universitetində, Bakı Dövlət Universitetin Qazax filialında, Mingəçevir Dövlət Universitetində, həm də bir sıra ümumtəhsil məktəblərində, o cümlədən Gəncə şəhəri Nizami Gəncəvi adına 11 nömrəli, Ş.İ. Xətai adına 13 nömrəli, Nizami Aydın adına 18 nömrəli, Mingəçevir şəhəri İlqar Rüstəmov adına 5 nömrəli, Bakı şəhəri Etibar Əliyev adına 162 nömrəli tam orta məktəblərində aparılmışdır.

Eksperimentin birinci, müəyyənedici mərhələsi dissertasiyada araşdırdığımız problem baxımından hazırki vəziyyət haqqında səhih məlumat verdi. Yaxşı və nöqsanlı hallar aşkara çıxdı. Müəyyənləşdirici mərhələnin yekunları eksperimentin öyrədici mərhələsinə keçidi mümkün etdi.

Kontrol və eksperimental qruplar müəyyənləşdirildi. Pedaqogika, psixologiya, pedaqoji psixologiya fənləri üzrə bir sıra mövzular eksperimentdə əsas materiallar kimi qəbul edildi. Eksperimentdə iştirak edən müəllimlərin (eksperimental və kontrol), tələbələrin və qrupların bərabər səviyyəli olmaları məsləhət bilindi. Müəllimlərin iş stajında da əsaslı fərq yox idi. Eksperimentə cəlb olunmuş qrupların tələbələri arasında mütəşəkkil və sistemli və məqsədyönlü işlər aparılırdı. Eksperimental qruplarla tədbirlərdə biz də yaxından iştirak edir, lazım gəldikdə müəllimlərə öz köməyimizi göstərirdik. Bu kömək eksperimental qrup tələbələrində pedaqoji tolerantlığın daha da inkişaf etməsinə, onların tolerant şüura, tolerant düşüncəyə, tolerant təfəkkürə və tolerant davranış təcrübəsinə yiyələnmələrinə yardımçı olurdu.

Eksperimentin ikinci mərhələsində qarşıya qoyulmuş vəzifələr bunlar idi: qarşılıqlı fəaliyyətin mövcud vəziyyətinin təhlilini aparmaq; ixtilaflı vəziyyətlərinin həllindən ötrü müvafiq üsullarla bağlı biliklərin formalaşdırılmasına; vəziyyəti həll etməyin mümkün yollarına dair tənqidi müqayisə təcrübəsinin təşəkkülü; vətəndaş hüquqları ilə bağlı qazanılmış biliklərin təcrübədə tətbiqi bacarıqlarının təkmilləşdirilməsi; tələbə gənclərin özünənəzarətinin inkişafı.

Üçüncü mərhələnin vəzifələrinin yerinə yetirilməsi tələbə oğlanların və qızların rol oyunları, sosial və psixoloji təlim (elementlər), müzakirələr, konkret vəziyyətlərin təhlili prosesinə daxil edilməsi əsasında reallaşmışdır. Tələbələr arasında tərəfdaşlıq əlaqələri qurulmuş; etibarlı atmosfer mühiti yaradılmış; başqa şəxslərin şəxsiyyətinə xələl gətirən vasitələrdən istifadədən imtina olunmuş; şəxsiyyətlərarası münasibətlərin formalarını seçərkən tələbələr üçün subyektiv azadlığın olmasına imkan və şərait yaradılmışdır.

Eksperimentin birinci, müəyyənləşdirici mərhələsində tələbələrə verdiyimiz suallarla bir daha eksperimental və kontrol qruplardan olan tələbələrə müraciət etdik.

Cədvəl 2.4.1-dən nəticələr barədə məlumat almaq mümkündür:

**Cədvəl 2.4.1.**

**Tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması ilə bağlı göstəricilər**

| Sıra № | Cavab almaq istədiyimiz məsələlər | Səviyyələr | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yüksək (nəfərlə) | | Orta (nəfərlə) | | Aşağı (nəfərlə) | |
| | | Eks. | Kontr. | Eks. | Kontr. | Eks. | Kontr. |
| 1. | Tolerant olmaq nə deməkdir? | 43 | 32 | 31 | 33 | 11 | 19 |
| 2. | Kimə tolerant şəxs demək olar? | 45 | 34 | 30 | 29 | 10 | 21 |
| 3. | Pedaqoji tolerantlıq nə deməkdir? | 48 | 37 | 26 | 34 | 9 | 13 |
| 4. | Müəllim nə üçün pedaqoji tolerantlığa yiyələnməlidir? | 46 | 35 | 27 | 33 | 12 | 16 |
| 5. | İntolerant olmaq nə deməkdir? | 39 | 29 | 33 | 35 | 13 | 21 |
| 5. | Müəllim əsəbiləşəndə intolerantlığa yol verə bilərmi? | 37 | 33 | 38 | 32 | 10 | 19 |
| 6 | Şəxsiyyətlərarası tolerantlı1ıq nə deməkdir? | 42 | 36 | 38 | 31 | 15 | 17 |
| 7. | Pedaqoji tolerant düşüncə dedikdə nə başa düşülməlidir? | 35 | 32 | 39 | 29 | 12 | 23 |
| 8. | Tolerant şüura nələr daxildir? | 31 | 27 | 37 | 31 | 17 | 26 |
| 9. | Tolerant təfəkkür nə deməkdir? | 37 | 26 | 30 | 33 | 18 | 25 |
| 10. | Pedaqoji tolerant davranış özündə nələri ehtiva edir? | 39 | 34 | 34 | 23 | 12 | 27 |
| 11. | Pedaqoji tolerantlığın meyarlarına nələr daxildir? | 36 | 31 | 28 | 27 | 21 | 26 |

Qeyd: Sorğuda eksperimental qruplardan 85 tələbə, kontrol qruplardan 84 tələbə iştirak etmişdir.

Cədvəldən göründüyü kimi, sistemli, məqsədyönlü, müntəzəm iş eksperimental qruplardan olan tələbələrin yüksək nəticələr əldə etmələrinə şərait yaratmışdır.

Yuxarıda deyilənlər göstərir ki, fərziyyəmiz özünü doğrultmuşdur. Eksperimental qrup tələbələrində pedaqoji tolerantlıq halları kifayət qədər inkişaf etmişdir.

Tədqiqatdan bir sıra önəmli **nəticələr** alınmışdır. Onların bəziləri aşağıdakılardan ibarətdir:

1. Mövcud ədəbiyyatın öyrənilməsindən görünür ki, təhsilalanlarda tolerantlığın formalaşdlrlıması problemi istər respublikamızda, istərsə də MDB ölkələrində xüsusi tədqiqatların obyekti olmuşdur. Bu tədqiqatlar bir neçə istiqamət baxımından diqqəti cəlb edir. İlk növbədə qeyd olunmalıdır ki, bu tədqiqatlar ümumtəhsil məktəbləri, ali və orta ixtisas məktəblərini əhatə edir. Bundan başqa, müxtəlif yaş qruplarını özündə birləşdirir. Respublikamızda prof. A.N. Abbasov ailə münasibətlərində tolerantlıq problemini özündə birləşdirən araşdırmalar aparmış, Z. Abbasov, R. Aslanova, N. Bayramlı, Z. Bəşirqızı, Cavid, A. Eyvazov, L. Əliyeva, R. Cəfərli, S. Hüseynov X. İsmayılqızı, L. Mehralı, A. Mustafayeva, P. Əliyev və b. təhsilalanlarda tolerantlığın fornaıaşdırılması ilə bağlı məqalələr yazmış; pedaqogika üzrə fəlsəfə doktoru İ.B. Əmirəliyeva isə, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

Yalnız A.F. Quliyevanın məqalə və tezisləri pedaqoji tolerantlığın formalaşdırılmasına ("Pedaqoji tolerantlığın aktual problemləri") aiddir.

2. Xarici ölkələrdə tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması problemi üzrə tədqiqatların az olması, respublikamızda isə, bu problemin tədqiqat obyekti olmaması səbəbindən tərəfimizdən tədqiqi aktual olmuşdur.

3. Müəyyən edilmişdir ki, tələbənin tolerant mövqeyi onun tolerant şüur və düşüncəsinin, tolerant təfəkkürünün inkişafına, tolerant davranışının motivasiyasına kömək göstərir.

4. "Təhsilverənlərin etik davranış qaydaları" ilə tanışlıq tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasının mühüm vasitəsidir.

5. Pedaqoji tolerantlıq müəllim-müəllim, müəllim-tələbə, müəllim-valideyn qarşılıqlı münasibətlərində baş qaldırmış ixtilafların qarşısının alınmasının və həllinin səmərəli vasitəsidir.

6. Tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılmasında təlim prosesinin, eyni zamanda auditoriyadankənar tədbirlərin imkanları geniş, rolu böyükdür.

10. Ümumilikdə, təcrübi-eksperimental iş irəli sürülən fərziyyənin doğruluğunu təsdiq etdi. Beləliklə, qarşıda dayanan məqsədə nail olundu, tədqiqatın vəzifələri yerinə yetirildi.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək olar:

1. Problemin aktuallığı nəzərə alınaraq, pedaqoji tolerantlıq üzrə tədqiqatların davam etdirilməsi məsləhətdir.

2. Pedaqoji kollektivlərə praktik kömək göstərilməsini təmin etmək məqsədilə pedaqoji tolerantlığa aid tədris-metodik vəsaitlərin nəşri məqsədəuyğundur.

3. Ali təhsil müəssisələrinin tədris planlarına “Pedaqoji tolerantlıq” adlı fənnin daxil edilməsi faydalıdır.

Dissertasiyanın əsas məzmunu, tədqiqatda irəli sürülən başlıca ideyalar, əldə olunan nəticələr müəllifin çap olunmuş **aşağıdakı əsərlərində** öz əksini tapmışdır:

1. “Müəllimlərin etik davranış qaydaları” tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması vasitəsi kimi // – Gəncə: AMEA Gəncə Bölməsi. Xəbərlər məcmuəsi (Pedaqoji elmlər seriyası). – 2021. № 1, – s.82-83.
2. Təhsilalanlarda pedaqoji tolerantlığın formalaşdırılması problemi üzrə mövcud ədəbiyyatın təhlili // – Bakı: BSU. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2022. № 1, – s.130-135.
3. Pedaqoji tolerantlıq müəllimin mühüm peşə keyfiyyəti kimi // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2022. № 1, – s.111-114.
4. İstehsalat (pedaqoji) təcrübəsi zamanı tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2022. № 4, – s.57-64.

5. Эффективное установление отношений преподаватель-студент как важное условие формирования педагогической толерантности // – Бишкек: Наука, новые технологии и инновации Кыргызыстана. Международный научно-теоретический журнал, – 2022. № 6, – с.278-281.
6. Pedaqoji tolerantlıq gələcək müəllim şəxsiyyətinin formalaşmasının vacib şərti kimi // Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "İnsan kapitalının inkişafı və təhsil" mövzusunda respublika elmi konfransının materialları. – Bakı: BDU, – 5-6 may, – 2022, – s.305-309.
7. Pedaqoji tolerantlığın bərqərar olmasında pedaqoji ünsiyyət modellərinin rolu // "Ümumi təhsilin Dövlət standartları və məktəb təcrübəsi" mövzusunda respublika elmi-praktik konfransın materialları. – Naxçıvan: NMİ, – 20 may, – 2022, – s.151-152.
8. Педагогическая толерантность как один из важнейших видов толерантности // Наука и просвешение. Современные проблемы науки, общества и образования (сборник статей II международной научно-практической конференции. – Пенза, – 30 марта, – 2022, – с.223-225.
9. Müəllim hazırlığı sistemində tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması baxımından auditoriyadankənar tədbirlərin rolu // "Müasir mərhələdə müəllim hazırlığının aktual məsələləri: uğurlar və çağırışlar" mövzusunda beyənlxalq elmi konfransın materialları. – Naxçıvan: NMİ, – 15-16 декабря, – 2023, – s.181-182.
10. Actual problems of work on forming pedaqogical tolerance in students // – Киив: Министерство освити и науки Украини национальна академия педагогичных наук Украини Державний заклад вищои освити «Университет менеджменту освити». Висник пислядипломной освити. Зборник науковых прац. Серия «Педагогични науки», – 2023, Выпуск 26, – s.50-62.
11. Pedaqoji tolerantlığın aktual problemləri // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2025. № 2, – s.57-64.

Dissertasiyanın müdafiəsi 23 iyun 2026-cı il tarixində saat 16:00 Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1096, Bakı şəhəri, Məhsəti Gəncəvi küçəsi 41 (Neftçilər kampusu)

Dissertasiya ilə Xəzər Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Xəzər Universitetinin rəsmi internet saytında (https://www.khazar.org) yerləşdirilmişdir.

Avtoreferat 14 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.05.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 46519 işarə

Tiraj: 100